# LAYİHƏ ÜZRƏ MƏLUMAT BÜLLETENİ

Funded by the European Union

**Qəbələ, İsmayıllı və Qax rayonlarında turizm və kənd təsərrüfatı sahələrində duala bənzər peşə təhsili və təlimi pilotlarının yaradılması (ED VET layihəsi)**



**İcra müddəti:** 01.09.2017 - 30.06.2020

**ŞT ölkələri:**

Azerbaijan

**Aİ-nin maliyyə yardımı:** € 1 980 000

**Ümumi büdcə:** € 2 200 000

**İcraçı təşkilat(lar):**

DEUTSCHE GESELLSCHAFT FUR INTERNATIONALE ZUSAMMENARBEIT (GIZ) GMBH

**Sosial media hesablarına keçidlər:**

**Internet səhifəsi:**

**Layihənin təsviri:**

"Qəbələ, İsmayıllı və Qax Rayonlarında Kənd Təsərrüfatı və Turizm Sahələrində Duala Bənzər Peşə Təhsili və Təlimi (PTT) Pilotlarının Yaradılması (ED VET)" layihəsi Avropa İttifaqı və Almaniya Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyi (BMZ) tərəfindən maliyyələşdirilib və "Deutsche Gesellschaft für Internationale Zusammenarbeit (GIZ) GmbH" tərəfindən 2017-ci ilin sentyabr ayından 2020-ci ilin iyun ayınadək icra olunub. Pilot layihənin məqsədi Almaniyanın duala bənzər PTT yanaşmasını tətbiq etməklə kənd təsərrüfatı və turizm üzrə PTT-nin cəlbediciliyini və əmək bazarının uyğunluğunu artırmaqdır.
Layihənin ümumi məqsədi təklifə əsaslanan PTT-dən tələbə əsaslanan PTT-yə keçidi dəstəkləməkdir. Buna nail olmaq üçün Layihə tərəfindən 3 PTT mərkəzinə özəl sektor ilə sağlam və davamlı əlaqələrin qurulması, əmək bazarına yönəlmiş kurikulum və praktiki təlim prosesinin təşkili, habelə işəgötürənlərlə sıx əməkdaşlıq sayəsində təhsil işçilərinin bacarıqlarının artırılmasının dəstəklənməsi nəzərdə tutulub.

**Gözlənilən nəticələr:**

- 3 peşə mərkəzinin strateji mövqe sənədi hazırlanıb;
- 3 peşə mərkəzi ilə özəl sektor arasında (ikili tipli VET ilə) strateji tərəfdaşlıq (duala bənzər PTT üzrə) qurulub;
- 3 peşə mərkəzi üçün 2 sektor üzrə əmək bazarının ehtiyacına uyğun səriştəyə əsaslanmış kurikulum və tədris materialları hazırlanaraq sınaqdan keçirilib;
- Gələcək sahibkarlar və həssas qruplar üçün ehtiyaca uyğun PTT təlimləri hazırlanıb;
- PTT mərkəzlərinin rəhbər və inzibati şəxsləri, müəllim və usta-təlimçi heyəti, habelə özəl sektor təlimatçılarının bacarıqları artırılıb;
- PTT üzrə təşviqat strategiyasının hazırlanması və tətbiq edilməsi, öyrənilmiş dərslər milli/beynəlxalq səviyyədə yayılıb.